# Dövlətçiliyimizin və müstəqilliyimizin rəmzi

**Hər bir dövlətin, millətin varlığını təsdiqləyən, əsrdən-əsrə, nəsildən-nəslə ötürülən bayraq varlıq simvoludur. Dövlətçilik rəmzi olan bayraq müqəddəsliyin, müstəqilliyin nəfəsi, istiqlaliyyətin səsidir. Dövlət rəmzləri dövlətçilik əlaməti olmaqla, ölkənin tarixi keçmişindən gələn və gələcəyə istiqamətlənən özünəməxsusluğunu əks etdirir. Çünki atribut xalqın həm də mübarizə simvoludur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir".**

Azərbaycan Respublikasının Dövlət Bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır. 23 aydan sonra Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrasa da, dövlətçilik ideyaları yaşadı, xalqın mübarizə əzmi qırılmadı, üçrəngli bayrağımızın yenidən yüksələcəyinə böyük ümid bəslədi. O gün gəldi. Ürəklərdə yaşayan üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi və həmin Sessiyada Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıldı.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti tərəfindən dövlət rəmzi kimi təsdiq edilən bayraq ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ümumxalq referendumu ilə qəbul edilən Konstitusiyada da öz əksini tapdı. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını da bərpa etdi.

Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində qeyd olunur ki, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Ulu öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncamı da dövlət atributlarının təbliği baxımından mühüm əhəmiyyət kəsb edir: "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun" - deyə Ulu Öndər çıxışlarında dəfələrlə bildirmişdir.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilib. Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncam imzalamış, bu sərəncamla hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2009-cu il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirmişdir.

Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir.

Ötən il sentyabrın 27-də başlanan və Azərbaycan xalqına şanlı Zəfər bəxş etmiş İkinci Qarabağ müharibəsi artıq tarixə döndü. Bu möhtəşəm qələbə dövlət müstəqilliyimizin bərpası və müstəqil Azərbaycan dövlətinin qurulması ilə birlikdə son 30 illik tariximizin ən parlaq səhifəsinə, xalqımızın Vətən və torpaq sevgisinin yenilməzliyinin təntənəsinə çevrildi, dövlətimizin qüdrətinin, xalqımızın mətanətinin, ordumuzun və əsgərimizin şücaətinin, Prezidentimizin uzaqgörənliyinin nümayişi olaraq tarixə yazıldı.

Rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsində ərazilərimiz erməni işğalından addım-addım, qarış-qarış azad edildi. Bu gün üçrəngli bayrağımız doğma torpaqlarımızda- Füzulidə, Suqovuşanda, Hadrutda, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Ağdamda, Laçında, Kəlbəcərdə xalqımızın tarixi birlik və qəhrəmanlıq simvolu olan Xudafərin körpüsü üzərində qürurla dalğalanır və bundan sonra da əbədi dalğalanacaqdır.

Ötən il noyabrın 8-də Dövlət Bayrağı Günü ərəfəsində isə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın səbirsizliklə gözlədiyi müjdəni verdi: "Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır". Prezidentin xalqa müraciətindən sonra yüz minlərlə insan əllərində Azərbaycan bayrağı paytaxtın küçə və prospektlərinə axışaraq Şuşa zəfərinin sevincini paylaşdı. Azərbaycan bəlkə də son bir əsrdə bu qədər sevinc yaşamamışdı, bayrağa bu qədər sevgi görməmişdi. Şuşanın 28 ildən sonra düşmən tapdağından azad edilməsi Bayraq Günü ərəfəsinə təsadüf etdi, bayram-bayrama qarışdı. Şuşaya bayrağımızın sancıldığı və 2020-ci ilin 8 noyabr günü Azərbaycan tarixinə əbədi həkk olundu.

Azərbaycan Bayrağı hər bir vətəndaşın fəxri, iftixarı və qürur mənbəyidir. Üçrəngli bayrağımız hər zaman əbədi olacaq, bütün dünyada Azərbaycan dövlətinin və xalqının varlığını təsdiqləyəcəkdir.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika.- 2021.- 7 noyabr.- S.14.